Ədəbiyyat qəzeti. 17 iyun.2023.S.13




# "Ömrün yolları da pilləkan kimi..."

*"Xudafərin" dərgisinin yeni sayında*

Yenə qucaq açıb xatirələrə, sevgi ətiri var, vəfa nəfəsi. "Sən fikir eləmə" təsəllisi var yenə "Xudafərin" səhifəsində. "Kimin sualı var?" - cavabı onda. Xeyirxah gəlişi "Zümrüd quşu"du. "Mənim nigahımı pozdu təbiət" nisgili yaşayır vərəqlərində. Hələ davam edir hər sətirində "Pompeyin Qafqaza yürüşü", dostlar. "Qaçaq Kərəm" haqda, Poylu barədə beşik nəğmələri düzüm-düzümdü. "Gəlimli-gedimli dünya" barədə yazılan fikirlər "Nə qəribədi..." Ürəklə oxunur "Azadlıq himni"- "Bütün millətlərə" görk olsun deyə. "Midiya sarayı" nişan verilir gələni-gedəni türk olsun deyə. Necə də ətirli, təravətlidi, bax, "Nabat xalanın çörəyi" yenə. Yox, elə deyil ki, böyük şairin sözü qəlb sındıra, könülə dəyə.

Bir-bir sıralanıb xatirələri, bir-bir - "Atabəylər", "Bəyanət", "Həsrət..."

Xalq şairi Nəriman Həsənzadəyə həsr edilmiş təqdimatla açılır "Xudafərin" dərgisinin bu zərif sayı. İlk səhifədə görkəmli şairin "Səndən qabaq", "Yaşayır" adlı şeirləri yer alıb. Sonra ayrı-ayrı illərdə nəşr edilən kitabları barədə qısa xülasə. Əlavə olaraq da həyatı, fəaliyyəti, yaradıcılığı haqda ilginc məlumatlar.

"Xudafərin"in budəfəki sayının üz qabığını gənc rəssam Gülnarə Məmmədovanın Xalq şairi Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" povestinin motivləri əsasında çəkdiyi rəsm bəzəyir. Ömrün ahıl çağından uşaqlığına boylanır böyük şair bu rəsmdə. Ömrün hesabatını verir sanki:

*Ömrün yolları da pilləkan kimi,*
*Gendən ucalara lap çox baxmışam.*
*Mən o pillələri bir insan kimi*
*Gör ki, necə gəlib, necə qalxmışam.*

**Sərvaz HÜSEYNOĞLU**